# «DÖVLƏT TARİXİ - MEMARLIQ VƏ TƏBİİ QORUQ MUZEYİNİN YARADILMASI HAQQINDA

*E. İ. Vəliyev*
*Fizika - riyaziyyat elmləri doktoru*
*B. Y. Vəliyev*
*Tarixçi*

Doğma Azərbaycanımızda olan yeniliklər, yaşadığı ölkədən asılı olmayaraq, biz azərbaycanlıları çox sevindirir. Bu yeniliklər hansılardır: yeni obyektlərin istifadəyə verilməsi, müasirlik problemlərinin aktuallığı ilə bağlı Avropa və Dünya miqyasında formulların keçirilməsi beynəlxalq yarışlarda idmançılarımızın müvəffəqiyyətləri, bir sözlə bütün sahələrdə iqtisadi yüksəliş. Elmi fəaliyyətimlə əlaqədar mən Moskva, Paris, Tokio, Vaşinqton şəhərlərində olmuşam. Qətiyyətlə deyə bilərəm ki, bugünkü Bakımız gözəllikdə dünyanın iri paytaxtlarından heç də geri qalmır.

Hörmətli Prezident Sizin rəhbərliyiniz altında Azərbaycan yeni zirvələr fəth edir. Biz öz Prezidentimizlə fəxr edir və Azərbaycan xalqının səadəti uğrunda gördüyünüz şanlı əməyinizə görə Sizə minnətdarıq.

Bizim üçün çox xoşdur ki, Azərbaycan diasporunun nümayəndələri bu foruma boş əllə gəlməmişdir. Avropanın böyük musiqi müsabiqəsində bizim iştirakçıların qələbəsi həmçinin diasporamızın fəal dəstəyi ilə əldə edilmişdir. Hamınızı bu parlaq qələbə münasibətilə təbrik edirəm. Bunu Azərbaycanın Avropa qarşısında özünəməxsus təqdimetmə mərasimi hesab etmək olar.

Əfsus ki, bəzən Avropa dövlətlərinin əməlləri və hərəkətləri heç bir məntiqə sığmır. Bu gün siyasətdə ikili standartların olması ABŞ və Avropa normasına çevrilmişdir. Niyə görə Liviya barəsində qətnamə qəbul olunan kimi yerinə yetirilir. Lakin bu sənədlərdə Dağlıq Qarabağ haqqında BMT-nin qəbul etdiyi dörd qətnaməni çalışırlar ki, heç yada salmasınlar.

2009-cu ildə Nobel mükafatına layiq görülmüş «Axtisari fin əldəqayırma diplomatı» sərhədlərin sarsılmazlığı və toxunulmazlığı haqqında BMT-nin qanunlarını kobud surətdə pozaraq Kosovo diyarını Serb Respublikasından ayırdı.

2010-cu ildə isə Nobel mükafatı Çin hökuməti tərəfindən Çindəki hakim partiyasına qarşı çıxdığına görə məhkum edilmiş Çin jurnalisti Lyu Syaboya verildi. O, bilməli idi ki, Çin dövləti Kommunist partiyasının rəhbərliyi altında iqtisadi inkişafa görə dünyada ikinci yerə çıxmışdı. Zənnimcə, burada sağlam düşüncə tamamilə pozulmuşdur.

Soraşula bilər, mən niyə görə bu misalı göstərdim? Məni narahat edən odur ki, yeni Axtisari kimisi meydana gələ bilər və Dağlıq Qarabağ münaqişəsinin analoji «sülh» nizamasalma planını hazırlayar və növbəti dünya mükafatını o, ala bilər.

Bu gün Ermənistan Avropa demokratiyasının «nailiyyətlərinə əsaslanaraq xalqların öz müqəddəratlarını tapması hüququ haqqında car çəkir. Lakin onlar sadə tarixi həqiqəti unudurlar: xalqlar öz müqəddəratlarını döyüşərək qanlı çarpışmada doğma torpaqları uğrunda böyük itkilər hesabına qazana bilərlər. Lakin, mənfur düşmənlərimiz bütün bunları Avropa məmurlarının rüşvət məkanı olan kabinetlərində qazanmaq istəyirlər. Daşnak ermənilər deyin görək xalqlar özlərinə «günəş altında» yer əldə edəndə siz haralarda idiniz. Cavab bəllidir: Sizə yaşamaq üçün yer verənbrə torpaqlarını, çörəyini əsirgəməyənlərə sizi himayə edən xalqlara qarşı sizin satqınlığınız, xəyanətiniz olmuşdur.

İrəvan xanlığının yaradılmasında erməni alimləri heç bir əsər-əlamət tapa bilmirlər. Axı, deyin olamayan bir şeyi necə tapmaq olar? Bir tarixi faktı göstərmək istəyirəm. Erməni din xadimi Obanes Şaxatun xronoloji qaydada 1441-ci ildən 1928-ci ilə kimi Əmir Saaddan tutmuş Həsən xana kimi (hamının adlarını çəkmək və çoxlu tarixi faktlar göstəmək fikrində deyiləm - qoy onlarla tarixçilər məşğul olsunlar) hökmranlıq etmiş əlli bir İrəvan xanlarının siyahısını tərtib etmişdir. Bir şey aydındır ki, «qədim erməni şəhəri»ndəki hökmdarlar işərisində bir nəfər də olsun hay tayfasının nümayəndəsi yoxdur.

Qeyd etmək lazımdır ki, istiqlaliyyət qazanıldıqdan sonra Azərbayan alimləri tarixinin öyrənilməsi sahəsində böyük işlər görmüşlər. Belə ki, bu əsərlərin müəllifləri əsasən azərbaycanlılar olduğundan, bəzi əldə qayırma mütəxəssislər bu işlərə həmişə Ermənistan arasında mövcud olan münaqişəyə obyektiv yanaşmamışlar. Həm də yeni texnologiyaların yaranması, internetin hər bir evə daxil olması mütəxəssilərin fikrincə kitaba olan maraq ildən-ilə azalır.

Belə olan halda Ermənistanın bizim əcdadlarımızın torpaqlarında olması tarixi həqiqətini dünya birliklərinə və bizim gənc nəslə necə çatdıraq?

Bu problemlə bağlı düşünərkən, mən belə bir nəticəyə gəldim. Qarabağ və İrəvan xanlıqlarının yaranmasını əyani subuta yetirmək üçün əcdadlarımızın ruhu şad olsun deyə açıq səma altında dövlət tarixi memarlıq və təbii qoruq muzeyi - İrəvan xanlığı muzeyinin tikintisi böyük əhəmiyyət kəsb edəcəkdir.Qarbağ xanlığına gəldikdə isə, heç kəsdə şübhə doğmur ki, yaxın vaxtlarda məcburi köçkünlər öz doğma evlərinə qayıdacaqlar.

Mənim təsəvvürümdə bu muzey İrəvan xanlığının özünəməxsus kiçildilmiş Surəti olacaqdır. Mütəxəssislər onun yerini və miqyasını müəyyən edəcəklər. Bütün yaşayış məntəqələri tarixi abidələr, onların türkdili adları İrəvan xanlığında elə yerləşdirəcəklər ki, muzeyin ərazisində hər bir yaşayış məntəqəsinin və ya tarixi abidənin qarşısında daş plitələr qoyulacaq və onların üzərində həmin tarixi obyekt haqqında qısa məlumat, tarixi adı, hansı ildə nə vaxt barbar ermənilər tərəfindən yerli Azərbaycanlıların köçürülməsi qeyd olunacaqdır.

Muzeyin inzibati binasında sənədli və maddi mənbələr yerləşdiriləcəkdir. Burada həmçinin İrəvan xanlığının siyahısı onların hökmdarlıq dövrü, Ermənistan Ali Soveti Rəyasət heyətinin yaşayış məntəqələrinin abidələrin, dağ çay və s. adlarının dəyişdirilməsi qəbul etdiyi fərmanların surətləri nümayiş etdiriləcəkdir. Bu, bizə nə verəcək?

Mən ümidvaram ki, İrəvan xanlığının tarixi ilə bağlı dərslərin muzeyin binasında aparılması və buradakı yaşayış məntəqələrinə səyahət məktəb partası arxasında mövzuların keçirilməsinə nisbətən şagird və tələbələrin təsəvvürlərində silinməz izlər buraxacaqdır. Azərbaycanda surətli iqtisadi inkişaf nəticəsində bu ölkəyə gələn turistlərin sayı artır. Turist səfərbrini elə təşkil etmək lazımdır ki, xarici turistlər mütləq bu muzeyə tamaşa etsinlər. Beblikla, zəhlə tökmədən tarixi faktlara əsaslanaraq bizim böyüməkdə olan nəsil və tədricən dünya birlikləri belə bir nəticəyə gələcəklər ki, ermənilərin bizim torpaqlara etdikləri iddiaların heç bir əsası yoxdur.

Tarixi - təbii qoruq muzeyin açılışı 2018-ci ildə olacağı planlaşdırılırsa bu da faciəvi günün 100 illiyinə təsadüf edəcək.O vaxt yəni 1918-ci ildə Azərbaycanın Milli Şurası erməni tərəfin xahişini nəzərə alaraq Daşnak respublikasının paytaxtı kimi İrəvanı onlara verdi.

Klassiklərdən kimsə belə deyib: «Müharibədə ən ağır məğlubiyyətə layiqsiz düşmək tərəfindən məğlubiyyətdir». Subyektiv və obyektiv səbəblərdən biz müvəqqəti olaraq hiyləgər və məkrli düşmənin qarşısında geri çəkilməli olduq.

O bu dəfə Azərbaycan torpaqlarını öz himəyadarlarının köməyi ilə ələ keçirdi. Sağlam mühakiməyə əsaslansaq Qarabağ münaqişəsinin ATƏT-nin Minski qrupu çərçivəsində həlli ilə məşğul olanlar elə dövlətlərdir ki, burada erməni diasporası böyük təsir qüvvəsinə malikdir, ona görə də həmin ölkələr tarixi ədalətin bərpa edilməsində maraqlı deyillər.

Lakin biz öz Ali Baş Komandanımıza hörmətli Prezidentimizə inanır və ümidvarıq ki, onun uzaqgörənliyi, ölçülüb-biçilmiş siyasəti yaxın gələcəkdə müvəffəqiyyətlə nəticələnəcək və bizim həmvətənlərimiz Dağlıq Qarabağda olan öz doğma yerlərinə qayıdacaqlar. Sonrakı qarşımızda duran strateji məsələ İrəvan torpaqlarının taleyidir.

«Hər şeyin öz vaxtı və onların yığılma vaxtı» Bu sözləri Bibliya təbliğçisi Ekklesiast demişdir. Orta əsr ərzində biz müxtəlif səbəblərdən torpaqlarımızı səpələmişik. Dayanmaq, düşünmək və əcdadlarımızın uyuduğu tarixi torpaqlarımıza qayıtmaq vaxtı çatmışdır.

Tarixlərə və rəqəmlər müəllif Araz Qurbanovun kitabı olan «Сказки армянских мудрецов» («Erməni müdriklərinin nağılları») Bakı-»Elnur P» 2005 göstərildiyi mənbələrə istinad edilmişdir.